# WEST AZERBAIJAN TRUTHS: ABOUT PROMINENT SOCIAL AND POLITICAL FIGURE AZIZ ALIYEV

**Misir Mardanov**

Institute of Mathematics and Mechanics of ANAS
general director, corresponding member of ANAS, doctor of physical-mathematical sciences, professor, Honored Scientist
E-mail: misirmardanov@yahoo.com
http://orcid.org/0000-0003-3901-0719

**Abstract.** The ancient Azerbaijani city of Iravan, currently in the hands of Armenians, has given hundreds of intellectuals to the people of Azerbaijan. In the 19th century, a large network of schools and madrasahs existed in this city, and religious and secular sciences developed. After the occupation of Azerbaijan by Russia, secular schools began to surpass religious schools. Officials of tsarist Russia, implementing the policy of Russification and Christianization, first opened emergency schools in Iravan in order to meet the educational needs of the local population, then they turned it into a pro-gymnasium, and then into a gymnasium. The increase in the number of Russian-language schools increased the need for teaching staff. After the establishment of the Iravan Teachers' Seminary in 1881, a network of schools involving Azerbaijanis was formed in the city and in Iravan province in general. In the article, a list of some of those who studied at the Iravan Gymnasium and the Iravan Teacher's Seminary and received higher education and interesting in formation about his life and activities on the prominent social and political figure Aziz Aliyev is given.

**Keywords:** West Azerbaijan, Iravan, Aziz Aliyev, Iravan gymnasium, Iravan Teachers' Seminary.

**To cite this article:** Mardanov M. (2022). West Azerbaijan truths: about prominent social and political figure Aziz Aliyev. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 75-85.
**Article history:** received – 11.05.2022; accepted – 24.06.2022

# QƏRBİ AZƏRBAYCAN HƏQİQƏTLƏRİ: GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİM ƏZİZ ƏLİYEV HAQQINDA

**Misir Mərdanov**

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun
baş direktoru, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri
doktoru, professor, Əməkdar elm xadimi
E-mail: misirmardanov@yahoo.com
http://orcid.org/0000-0003-3901-0719

**Annotasiya.** Hazırda ermənilərin əlində olan qədim Azərbaycan şəhəri İrəvanın elm, təhsil və mədəniyyət mühiti Azərbaycan xalqına yüzlərlə ziyalı bəxş edib. XIX əsrdə bu şəhərdə məktəb və mədrəsələrin böyük şəbəkəsi mövcud olub, dini və dünyəvi elmlər inkişaf edib. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra dünyəvi məktəblər dini məktəbləri üstələməyə başladı. Ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirən çar Rusiyası məmurları İrəvanda da yerli əhalinin təhsil ehtiyaclarını ödəmək məqsədi ilə əvvəlcə qəza məktəbləri açdılar, sonra onu progimnaziyaya, daha sonra gimnaziyaya çevirdilər. Rus dilində təhsil verən məktəblərin sayının artması müəllim kadrlarına olan ehtiyacı daha da artırdı. 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası təşkil olunduqdan sonra şəhərdə və ümumiyyətlə, İrəvan quberniyasında azərbaycanlıların cəlb olunduğu təhsil şəbəkəsi formalaşdı. Məqalədə İrəvan gimnaziyasında və İrəvan Müəllimlər Seminariyasında təhsil alanların bəzilərinin siyahısı və görkəmli ictimai-siyasi xadim Əziz Əliyevin həyat və fəaliyyəti haqqında maraqlı məlumatlar verilir.

**Açar sözlər:** Qərbi Azərbaycan, İrəvan, Əziz Əliyev, İrəvan gimnaziyası, İrəvan Müəllimlər Seminariyası.

**Məqaləyə istinad:** Mərdanov M. (2022). Qərbi Azərbaycan həqiqətləri: görkəmli ictimai-siyasi xadim Əziz Əliyev haqqında. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 75-85.
**Məqalə tarixçəsi:** göndərilib – 11.05.2022; qəbul edilib – 24.06.2022.

## Giriş / Introduction

Qədim Azərbaycan şəhəri olan İrəvan millətimizə yüzlərlə ziyalı bəxş edib. XIX əsrdə burada ənənəvi məktəb və mədrəsələrin böyük şəbəkəsi mövcud olub, dini və dünyəvi elmlər inkişaf edib, irəvanilər, qazıyevlər, muğanlinskilər, mirbabayevlər, topçubaşovlar, erivanskilər yetişib. Rusiyanın Azərbaycanı işğal etməsindən sonra tədricən dünyəvi təhsil verən məktəblər dini məktəbləri sayca üstələməyə başladı. İrəvanda ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirən çar Rusiyasının təhsil məmurları yerli əhalinin təhsil ehtiyaclarını ödəmək məqsədi ilə əvvəlcə qəza məktəbi (1832) açdılar, sonra onu progimnaziyaya (1869), daha sonra gimnaziyaya (1881) çevirdilər [Rüstəmov F., 2022].

Dünyəvi məktəblərin sayının artması müəllim kadrlarına olan ehtiyacı daha da artırdı. Bu səbəbdən də 1881-ci ildə İrəvan Müəllimlər Seminariyası təşkil edildi. İrəvan şəhərində və ümumiyyətlə, İrəvan quberniyasında azərbaycanlıların təhsil aldığı böyük təhsil şəbəkəsi formalaşdı. Bu məktəblərin bəzilərində azərbaycanlılar digər xalqların nümayəndələri ilə (erməni, gürcü, rus və b.) birlikdə oxuyurdular. Rus–Azərbaycan oğlan və qız məktəblərində isə yalnız azərbaycanlılar təhsil alırdılar. Az sonra bu təhsil ocaqlarının azərbaycanlı məzunlarının səsi Rusiyanın və Avropanın ali məktəblərindən gəlməyə başladı. İrəvan Müəllimlər Seminariyasının məzunlarının böyük əksəriyyəti İrəvan quberniyasında ibtidai məktəb müəllimi kimi şərəfli bir missiyanın daşıyıcılarına çevrildilər.

## Əsas hissə / Main part

Bir yazıda İrəvan gimnaziyasında və İrəvan Müəllimlər Seminariyasında oxuyaraq dünyəvi təhsil alanlar haqqında danışmaq, hətta qısa məlumat vermək belə imkan xaricindədir. Yaxın gələcəkdə onlar haqqında ayrıca kitab nəşr etdirəcəyimi nəzərə alaraq, onların bəzilərinin yalnız adlarını çəkməklə kifayətlənəcəyəm. Qeyd edim ki, bu sahədə araşdırmalar davam edir. Aşağıdakı siyahıya yalnız orta təhsilini İrəvan şəhərində alanlar daxil edilmişlər [Mərdanov M., Tahirzadə Ə., 2019; Rüstəmov F., 2022].

Ağabababəyov Əsəd bəy Hüseyn bəy oğlu (1891–?); Ağabababəyov–Muğanlinski Abbasəli bəy Ağababa bəy oğlu (1869–1961); Ağabababəyov–Muğanlinski Adil bəy Abbasəli bəy oğlu (1898–1933); Ağa oğlu (Ağayev) Məhəmmədbəy Həsən bəy oğlu (1895–1949); Ağayev Rza Məşədi Muxtar oğlu (1897–?); Allahverdibəyov Abbas bəy Hacı Baxşəli bəy oğlu (1895–?); Allahverdibəyov Həmid bəy Hacı Baxşəli bəy oğlu (1896–1960); Bağırbəyov (Mirzəbağırbəyov) Ağa bəy Hacı İsmayıl bəy oğlu (1887–1937); Bağırbəyov (Mirzəbağırbəyov) Əbülfət bəy

Hacı İsmayıl bəy oğlu (1894 –?); Erivanski Mehdi xan (1898 – 1960); Əfəndiyev Məhəmmədəmin Hüseyn Əfəndi oğlu (1897–?); Əliyev Əli Kərbəlayı Məhəmmədağa oğlu (1883 –?); Əliyev Əziz Məmmədkərim oğlu (1897–1962); Əliyev Hüseyn Kərbəlayı Məhəmmədağa oğlu (1885 –?); Hacıbəyli İslam bəy Abbasqulu bəy oğlu (1887–?); Hacılarov İbrahim (xəlil) ağa Hacı İsmayıl ağa oğlu (1893 –1939); Hacıyev Xaspolad bəy İsmayıl bəy oğlu (1900 –?); Hüseynbəyov Fərrux bəy Məhərrəm bəy oğlu (1876 –1913); Kazımov Mehdi Kərbəlayı Məhəmmədəli oğlu (1889–1954); Kəlbəlixanov Əliqulu xan Xəlifəqulu xan oğlu (1899 –?); Kəngərli Məhəmmədqulu bəy Şəfi bəy oğlu (1864 –1905); Qasımbəyov Xəlil bəy Firudun bəy oğlu (1870 –?); Qazıyev Adil bəy Hüseyn bəy oğlu (1889–1930); Qazıyev Əkbər bəy Hüseyn bəy oğlu (1894–1954); Qazıyev Məhəmməd (tağı) bəy Məhəmməd bəy oğlu (1883 –?); Qazıyev Yusif bəy İsmayılbəy oğlu (1885–1930); Qədimbəyov Cahangir bəy Ələkbər bəy oğlu (1891–1928); Qədimbəyov Əliəsgər bəy Mirzə Qədim İrəvani oğlu (1876–1918); Qədimbəyov Əziz bəy Mirzə Qədim İrəvani oğlu (1879 –?); Qədimov Adıgözəl Allahverdi oğlu (1896–?); Qədimov Ələkbər Molla Hüseyn oğlu (1893–?); Qədimov Məhəmmədismayıl Allahverdi oğlu (1895–1942); Makinski Abbas (əli) bəy Bəhram bəy oğlu (1888–1938); Makinski Əli bəy İbrahim bəy oğlu (1886–?); Makinski Teymur bəy Məhəmmədqulu bəy oğlu (1874–1924); Makinski Zülfüqar bəy Məhəmmədqulu bəy oğlu (1885–?); Xəlil Məhəmmədbağır oğlu (1897–?); Məhəmmədbəyov Mahmud bəy Hacı Əli bəy oğlu (1886 –1931); Məhəmmədbəyov Müğbil xan Rüstəm xan oğlu (1887–?); Məhərrəmov Məhəmməd Hacı Bayram oğlu (1895–1982); Məmmədov Maqsud Məmməd oğlu (1897–1937); Mirbabayev Mirhəsən Hacı Mirabbas oğlu (1896–1951); Mirbabayev (Mir)Yusif Hacı Mirabbas oğlu (1889–1951); Mirbağırov Mirhüseyn Mircəfər oğlu (1896–1970); Mirbağırov Mirməhəmməd Mirəhməd oğlu (1889–?); Mirbağırova Ruqiyyə Mirbağır qızı (?–?), Mirbağırova Kubra Mirbağır qızı (?–?); Miryəhyayev Mirəhməd Mirmüseyib oğlu (1899–?); Muğanlinski Cahanbaxış bəy Əlinağı bəy oğlu (1878/80–1942) Mürsəlbəyov Yusif bəy Məhəmmədşəfi bəy oğlu (1872–?), Nabatəlibəyov Aslan bəy Məhəmmədəli bəy oğlu (?–?); Nərimanbəyli Nəriman bəy Haşım bəy oğlu (1889–1938); Rəcəbli Əhməd Məşədi Cabbar oğlu (1898–1963); Rəcəbov Məcid Hacı Məhəmməd oğlu (1892–?); Rzayev (Məhəmməd)bağır Kərbalayı (Əli) əsgər oğlu (1891–1927); Rzayev Tağı Kərbəlayı (Əli) əsgər oğlu (1895–1959); Sadıqov Əkbər ağa Hacı Xəlil oğlu (1893–1928); Saqıncaklı Cəlilxan Saleh xan oğlu; Salehov Yusif Hacı Rza oğlu (1891–?); Səfərbəyov Həsən Səfər oğlu (?–?); Səfiyev Cəlil bəy Ağa bəy oğlu (1880–?); Səfiyev Həsən bəy Ağa bəy oğlu (1884–?); Səfiyev Hüseynqulu bəy Cabbar bəy oğlu (1879–?); Səlimov Həbib bəy Hacı Yusif bəy oğlu (1881–1920); Süleymanbəyov Məhəmməd(əli) bəy İbrahim bəy oğlu (1890–1920); Sultanhüseynbəyov İsmayıl bəy (1892–?);

Sultanov Allahyar bəy İsgəndər bəy oğlu (1892–1938); Sultanov Əliqulu bəy Əli bəy oğlu (1891–?); Sultanov Əsgər bəy Cabbar bəy oğlu (1897–1938); Şahtaxtinski Baxşəli ağa Məhəmmədtağısultan oğlu (1859–1918); Şahtaxtinski Əbülfət ağa Nəcəfqulu ağa oğlu (1858 –1913); Şahtaxtinski Əliqulu bəy Əliqulu ağa oğlu (1886 –1909); Şahtaxtinski İsasultan Nəcəf oğlu (1851–1894); Şeyxov Fərəculla (?–?); Şeyxülislamov Əkbər ağa (1891–1961); Topçubaşov Mustafa Ağabəy oğlu (1895–1981).

Adlarını çəkdiyimiz bu ziyalıların içərisində görkəmli ictimai-siyasi xadim Əziz Məmmədkərim oğlu Əliyev xüsusi yer tutur. Ulu öndər Heydər Əliyev onun haqqında demişdir: "Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, qeyri-adi insan idi. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın rəhbəri idi. Moskvada, sonra isə Azərbaycanda məsul işlərdə çalışmışdı".

Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci il, yanvar ayının 1-də İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur [Naxçıvan Ensiklopediyası, 2002]. Atası Məmmədkərim Kərbəlayı Qurbanəli oğlu kənd təsərrüfatı işləri ilə məşğul idi, anası Zəhra xanım məşhur İrəvan taciri İbrahim bəyin qızı idi. Əliyevlər ailəsi 1905-ci ildə Hamamlı kəndindən İrəvan şəhərinə köçür və Əziz həmin ildən orada rus-tatar (türk) məktəbində oxumağa başlayır.

Əziz Əliyev 1908-ci ildə İrəvan Kişi Gimnaziyasına daxil olub. Yaxşı oxuduğa görə təhsil haqqı verməsə də, 1914-cü ildən ailəni dolandırmaq üçün gecələr evdə uşaqlara dərs deməyə başlayır. 1917-ci ildə gimnaziyanı qızıl medalla bitirib. Elə həmin il Hacı Zeynalabdin Tağıyevin maddi yardımı ilə Petroqrada gedərək, Hərbi Tibb Akademiyasına daxil olub. 1918-ci ilin yayında birinci kursu bitirib, İrəvana tətilə gələn Ə.Əliyev daşnakların yerli türklərə (azərbaycanlılara – M.M.) qarşı xüsusi qəddarlıqla həyata keçirdiyi qətliam üzündən anası və bacıları ilə birlikdə Naxçıvana – Şərurun Şahtaxtı kəndinə köçür. Ailə vəziyyəti və ermənilərin törətdiyi qırğınlar ona təhsilini bitirməyə imkan vermir. Qaniçən Andronikin başçılıq etdiyi erməni quldur dəstələrinin qanlı cinayətləri nəticəsində didərgin düşən başqa Şahtaxtı sakinləri ilə birlikdə onlar da bir müddət Cənubi Azərbaycanın Ərəblər kəndinə sığınırlar. Bu kənd Şahtaxtı kəndindən cəmi 2–3 kilometr aralı idi. Ailə orada tamamilə müflisləşir.

Məhrumiyyətlərə dözməyən Zəhra xanım burada dünyasını dəyişir. Naxçıvan erməni quldurlarından təmizləndikdən sonra, 1921-ci ildə onlar yenidən Şahtaxtıya qayıdırlar. Bütün bu müddətdə Ə.Əliyev tibb məntəqələrində çalışaraq, əhaliyə tibbi xidmət göstərir.

1923-cü ilin mayında Naxçıvan MSSR MİK Ə.Əliyevi təhsilini davam etdirmək üçün Bakıya göndərir. O, təhsilini Bakı Dövlət Universitetinin tibb fakültə-

sində davam etdirərək, 1927-ci ildə həkim diplomu alır [Mərdanov M., 2021]. Güclü təşkilatçılıq bacarığı olan Ə.Əliyev təhsil almaqla yanaşı, həm də Azərbaycan SSR Xalq Komissarları Şurasında (XKŞ) iş icraçısı, ümumi şöbənin müdir müavini, XKŞ katibinin müavini və katibi vəzifələrində çalışmışdır. O, elmi işlə də məşğul olur, aspiranturada oxuyur. Tibb elmləri namizədi adını almış, terapevtik klinikada dosent işləmişdir. Sonrakı illərdə məsul vəzifələrdə çalışmışdır – Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının müalicə şöbəsinin müdiri və Azərbaycan Kliniki İnstitutunun direktoru vəzifələrində işləmişdir.

21 iyul, 1929-cu ildə 32 yaşlı Əziz Əliyev Azərbaycan SSR xalq səhiyyə komissarının birinci müavini təyin edilir. Az sonra "yuxarıların qəzəbinə tuş gələn" Əziz Əliyev elə həmin il, dekabr ayının 28-də "elmi işə getməsi ilə əlaqədar" komissar müavini vəzifəsindən azad edilərək, Dövlət Kliniki İnstitutunun direktoru vəzifəsinə göndərilir və 1932-ci ilə qədər bu vəzifədə çalışır. 1930-cu il, iyun ayının 19-da Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılanda Əziz Əliyev ADTİ-nin yaradılmasında böyük rol oynayıb. 1932-ci ildə o, həmin institutun rektoru olub və bu vəzifədə 1934-cü ilə qədər çalışıb. 1933-cü ildə onun təşəbbüsü ilə institutda "Tibb kadrları uğrunda" (indiki "Təbib") adlı çoxtirajlı qəzetin nəşrinə başlanılıb.

1934-cü il, martın 30-da paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədi ilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri təyin edilir. 1935-ci il, yanvarın 14-də Azərbaycanda yüksək ixtisaslı milli tibbi kadrların hazırlığını gücləndirmək məqsədi ilə o, yenidən ADTİ-nin rektoru vəzifəsinə qaytarılır və bu vəzifədə 1938-ci ilin iyununa qədər çalışır.

Ə. Əliyev hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın, Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam etməklə onların təcrübə toplamaları üçün əlverişli şərait yaradırdı. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşaraq respublikaya qayıtmışlar.

O, eyni zamanda bir müddət (yanvar–may, 1937) Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsini də icra etmişdir. "Azərbaycan tibb jurnalı"nın məsul katibi işləmiş, 1935-ci ildən isə jurnalın redaktoru təyin edilmişdir. ADTİ-yə rektor təyin edildikdən az sonra o, azərbaycanlı kadrları işə cəlb edərək, onların fəaliyyət dairəsini genişləndirir və ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələr yazılmasına nail olur. Bu illər ərzində əməkdaşlar tərəfindən Əziz Əliyevin rəhbərliyi altında Azərbaycan dilində, latın qrafikası ilə 45 adda dərslik və dərs vəsaiti tərtib edilərək, tibbi təhsil alan tələbələrin ixtiyarına verilir. Bu, o dövrün texniki imkanlarına görə, çox böyük göstərici idi. 1937-ci ildə "Eksperimental nefrit" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, tibb elmləri doktoru adını alır. 1938-ci il, iyun ayının 1-də Azərbaycan Tibb İns-

titutunun direktoru vəzifəsindən azad olunur.

Onun Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində 11 nəfər doktorluq, 30 nəfər isə namizədlik dissertasiyası müdafiə etmişdir ki, onların da əksəriyyəti milli kadrlarımız idi.

Ə.Əliyevin təbabət sahəsində istedadı təkcə təşkilatçılıqla və praktik həkim fəaliyyəti ilə məhdudlaşmırdı. O, həmçinin gözəl nəzəriyyəçi alim idi. Əsərlərinin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunmuşdu. Onun elmi fəaliyyəti çoxsahəli idi. Təsadüfi deyil ki, akademik Mustafa bəy Topçubaşov Əziz Əliyev haqqında yazırdı: "Təbabət sahəsində bizdə çoxlu görkəmli və fəxri yer tutan alimlər, şəxsiyyətlər var. Mən onların çoxu ilə işləmişəm və onların bəzilərini şəxsən tanıyıram, amma Əziz Əliyev sadəcə şəxsiyyət deyildi. Onun fəaliyyəti ölkəmizdə xalq səhiyyəsinin inkişafı tarixində bizim üçün şanlı bir səhifə və çox dəyərli bir mərhələdir".

Bu mərhələ böyük və məsul bir dövrü əhatə edir. Bu, həmin dövrdür ki, səhiyyə sahəsində böyük və geniş miqyaslı işlər görülür, Azərbaycan səhiyyəsi inkişaf edir, milli tibbi kadrların böyük bir dəstəsi hazırlanırdı.

Ə.Əliyev 1938-ci ilin iyunundan 1939-cu ilin sentyabrına qədər Azərbaycan Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsində işləyib. 1939-cu ilin sentyabrından 1941-ci ilin martına qədər Azərbaycanın xalq səhiyyə komissarı olub.

1941-ci ilin mart ayında Azərbaycan K(b)P MK-nın katibi seçilən Əziz Əliyev həmin ilin sentyabrında sovet qoşunlarının tərkibində, bir qrup ziyalı ilə birlikdə İrana göndərilir. Bu qrup (Əziz Əliyev, Süleyman Rüstəm, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, İsrafil Nəzərov, Qulam Məmmədli, Mehdixan Vəkilov) Təbrizdə, Urmiyada, Ərdəbildə, Mərənddə, Zəncanda fəaliyyət göstərərək, öz missiyasını layiqincə yerinə yetirir. Həmin dövrdə Ə.Əliyevlə birlikdə İranda xidmət etmiş, sonralar onun yaxın dostlarından birinə çevrilmiş general-polkovnik N.İ.Trufanov öz xatirələrində yazırdı: "Əziz Əliyev İranda işləyərkən özünü dərin siyasi savada malik bir təşkilatçı kimi göstərdi. İranda bir çox problemlərin həllini Əziz Əliyev öz üzərinə götürürdü".

Zaqafqaziya Hərbi Cəbhə Şurasının üzvü kimi dövlət əhəmiyyətli işlərdə çalışan Əziz Əliyev müharibənin ən ağır vaxtlarında Dağıstan kimi milli münaqişələr ocağı ola biləcək çətin bir bölgəyə rəhbər göndərilir. SSRİ Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinin 16 sentyabr, 1942-ci il tarixli əmri ilə o, Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası (ÜK(b)P) Dağıstan Vilayət Komitəsinin 1-ci katibi təyin edilir və Azərbaycan K(b)P-nin katibi vəzifəsindən azad edilir. Ə.Əliyev bu vəzifədə 3 dekabr, 1948-ci ilədək çalışır. Burada onun gördüyü ən mühüm işlərdən biri istər dağıstanlıların, istərsə də azərbaycanlıların öz vətənlərində qalması üçün əlindən gələni etməsidir (Stalin–Beriya–Mikoyan üçlüyü bu xalqları Orta Asiyaya sürgün etməyə çalışırdı).

Ə.Əliyevin təşəbbüsü ilə 1943-cü ilin dekabrında Dağıstan Dövlət Filarmoniyası və 1945-ci ildə SSRİ Elmlər Akademiyasının Dağıstan bazası yaradılmış və bu elm ocağı hal-hazırda Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinə çevrilmişdir [Abdullayev İ. https://ikisahil.az/post/141926].

Dağıstanda dağlı qadınlardan milli kadrlar hazırlamaq məqsədi ilə Qadın Müəllimlər İnstitutu, Qadın Pedaqoji Məktəbi və Uşaq Kitab Nəşriyyatı açılmışdı. Müharibə illərində dağıstanlıların göstərdikləri əmək rəşadətinə görə respublikaya ilk dəfə Dövlət Müdafiə Komitəsinin Keçici Qırmızı Bayrağı verilmişdi. Onun işlədiyi dövrdə – 1942-ci ilin sentyabrından 1948-ci ilin dekabrına qədər olan dövrdə Vilayət Partiya Komitəsinin 24 plenumu və büronun 388 iclası keçirilmişdir. Sonralar Ə.Əliyev qeyd edirdi ki, müharibəyə qədər Dağıstanda 8 elmlər doktoru var idisə, müharibədən sonra onların sayı artıb 16 nəfər olmuş, elmlər namizədlərinin sayı isə 62 nəfərə çatmışdır. Onun işlədiyi illərdə respublikanın ali məktəbləri 1600-dən artıq ali təhsilli mütəxəssis hazırlamışdı. Paytaxtın ali məktəblərində oxumağa, aspiranturaya və doktoranturaya Dağıstandan 100 nəfərdən çox adam göndərmişdi.

Azərbaycanın görkəmli dövlət, ictimai və elm xadimi Əziz Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində ulu öndər Heydər Əliyev demişdir: “Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir. Bizim xalqımız üçün bunun xüsusi əhəmiyyəti var, ona görə ki, xalqımızın, Azərbaycanın ən yaxşı oğulları yalnız öz ölkəsində deyil, həm də başqa ölkələrdə, respublikalarda layiqli yer tuta bilirdilər. Bu, hər bir azərbaycanlının qəlbində çox böyük iftixar hissi doğurur”.

Ə.Əliyev 1946-cı ildə Dağıstan Muxtar Respublikasından SSRİ Ali Sovetinə deputat, 1947-ci ildə isə Dağıstan Ali Sovetinin deputatı seçilmişdi.

Ə.Əliyev 1949-cu il, yanvar ayının 1-dən İctimai Elmlər Akademiyasının nəzdindəki Ali Partiya Məktəbinə daxil olaraq, bir il burada oxuyur. Təhsilini bitirdikdən sonra ÜK(b)P MK-da inspektor kimi işə götürülür. Həmin ilin fevralında o, Azərbaycana dəvət olunaraq, fevral ayının 15-dən Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini təyin edilir və bu vəzifədə 1951-ci ilin sentyabrına qədər işləyir. Bu zaman valideynlərinin ictimai mənşəyini, bacısı və qohumlarının İranda yaşamasını gizlətməkdə ittiham olunaraq ona partiya cəzası verilir və Nazirlər Soveti sədrinin müavini vəzifəsindən kənarlaşdırılaraq Səhiyyə Nazirliyinin sərəncamına göndərilir. Ə.Əliyev Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru təyin edilir. 1952-ci ildə Azərbaycan SSR Dövlət təhlükəsizliyi naziri S.F.Yemelyanovun tərtib etdiyi arayışda Əziz Əliyevin atasının varlı kəndxuda, anasının dövlətli ailədən olması, əmisi Əliəkbərin İrəvan valisinin mühafizə dəstəsində çalışması, əmisinin Azərbaycan

Cümhuriyyətinin Baş naziri Fətəli xan Xoyskinin şəxsi tövsiyəsi ilə Azərbaycan qəzalarından birinə rəis təyin edilməsi, dayısı Məhəmməd bəy Süleymanbəyovun İrəvan valiliyində pristav vəzifəsində çalışması göstərilir [Mərdanov M., Tahirzadə Ə., 2019]. Bu sənəd Əziz Əliyev nəslinin şərəfli tarixini dəqiq və inkaredilməz şəkildə əks etdirir. Bu arayışa görə, Ə.Əliyev Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsindən azad edilərək, Sabunçudakı 3 saylı klinik xəstəxanaya baş həkimin müavini təyin edilmişdir. 1955-ci ildə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru təyin edilən Ə.Əliyev ömrünün sonuna qədər bu vəzifədə çalışır. 1956-cı ildə professor, 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar həkimi adını alıb. Elmi tədqiqatları, əsasən, eksperimental nefrit zamanı qanda baş verən biokimyəvi dəyişikliklərə, allergiya problemlərinə və başqa mövzulara həsr edilmişdir. Onun "Klinik analizlər" (1934) kitabı Azərbaycan dilində ixtisas üzrə ilk ali məktəb dərsliklərindəndir.

Ə.Əliyev böyük təşkilatçı, görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də çox qayğıkeş və gözəl ailə başçısı olmuşdur. Bu ailədən dünya şöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva kimi şəxsiyyət çıxmışdır. O, uzun müddət Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına rəhbərlik etmiş, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuş, SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Ə.Əliyevin oğlu, Əməkdar elm xadimi, professor Tamerlan Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər kafedrasına rəhbərlik etmiş, yüksək ixtisaslı həkim kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. Onun qızı, Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyevanın Azərbaycan musiqisinin, incəsənətinin inkişafı və təbliğində böyük xidmətləri olmuşdur. Qızlarından Ləzifə Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent vəzifəsində çalışıb, gənc tibbi kadrların yetişdirilməsində böyük xidmətlər göstərib. Dilbər xanım isə adlı-sanlı rabitəçi-mühəndis olub, "Əməkdar rabitəçi" fəxri adına layiq görülüb. Digər oğlu, məşhur cərrah-onkoloq, dünyanın bir çox ölkələrinin akademiyalarının, o cümlədən Rusiya Elmlər Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, keçmiş SSRİ Elmlər Akademiyasının akademik N.N.Petrov adına mükafatına və diplomuna, eləcə də Azərbaycanın "Şöhrət", "Şərəf" ordenlərinə layiq görülmüş akademik Cəmil Əliyev hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Tibb Xidmətinin rəisi vəzifəsini yerinə yetirməklə yanaşı, həm də Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinə, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasına rəhbərlik edir.

## Nəticə / Conclusion

Görkəmli dövlət xadimi Ə.Əliyevin dövlət quruculuğu, xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, elmi tədqiqatların təşkili, səhiyyənin inkişafı, ümumiyyətlə, çoxsahəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, I – II çağırışlar SSRİ Ali Sovetinin, I–III çağırışlar Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR Ali Sovetinin deputatı olub. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı", "I dərəcəli Vətən müharibəsi" ordenləri,"Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illiyi" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdir. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR əməkdar həkimi" fəxri adı verilib. Bu gün Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu onun adını daşıyır. Bir sıra şəhərlərdə onun adına küçələr var. Mahaçqalada abidəsi qoyulub (2016).

Əziz Məmmədkərim oğlu Əliyev 1962-ci il, iyulun 27-də, Bakı şəhərində vəfat etmiş, birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il, dekabr ayının 5-də "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Yubiley dövlət səviyyəsində qeyd olunmuşdur.

**Məqalənin aktuallığı.** Bu il İrəvan Müəllimlər Seminariyasının 140 illiyi qeyd olunur. Seminariyanın fəaliyyət göstərdiyi, Azərbaycan xalqı üçün ağır olan bir tarixi dövrdə, mövcud şəraitdə mübarizə apararaq yaşayan, xalqın övladlarının savadlanması, maariflənməsi yolunda mübarizə aparan insanların xatirəsini yaşatmaq lazımdır. Bir yazıda bütün bu qayələri yaşadan insanlar haqqında danışmaq, hətta qısa məlumat vermək belə imkan xaricindədir. Bütün bu problemlər bu gün də aktualdır, çünki demək olar ki, 200 ildən artıq olan bir müddət ərzində öz düşmənçilik fəaliyyətini davam etdirən bədnam qonşularımızın məqsədləri hələ də dəyişməyib.

**Məqalənin elmi yeniliyi.** Məqalədə Əziz Məmmədkərim oğlu Əliyevin həyatı və fəaliyyəti haqqında ətraflı məlumat verilir. Rusiya hakimiyyət orqanlarının Azərbaycan xalqına, onun qabaqcıl nümayəndələrinə olan qərəzli münasibəti, onların imperiya ambisiyaları aşkarlanır. Məqalədə Əziz Əliyev haqqında sıravi Azərbaycan vətəndaşlarının bilmədiyi bir çox faktlar aşkarlanır, onun həm həkim, həm alim, həm səhiyyə təşkilatçısı, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbər işçilərindən biri olması qeyd olunur.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış ideyalar, tarixi faktlar, irəli sürülən fikirlər, təklif olunan tövsiyələr Azərbaycanın təhsil tarixi, pedaqogika tarixi problemlərinin sistemli şəkildə izah olunmasına istiqamət verir. Məqalədən müəllimlər, tələbələr, tədqiqatçılar mənbə kimi istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Abdullayev İ. Əziz Əliyev: Qayğıkeş həkim, görkəmli ictimai-siyasi xadim və əbədiyaşar tarixi şəxsiyyət. https://ikisahil.az/post/141926.
2. Mərdanov M. (2021). Bakı Dövlət Universiteti. Bakı, "Təhsil", s. 162–165.
3. Mərdanov M., Tahirzadə Ə. (2019). 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. Bakı, "Təhsil", s. 377–383.
4. Naxçıvan Ensiklopediyası. (2002). Bakı, Azərbaycan Milli Elmlər Akademiyası, s. 134.
5. Rüstəmov F. (2022). Azərbaycanlı müəllim kadrlarının hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. "Azərbaycan məktəbi" jurnalı, №1, s. 105–122.
6. Rüstəmov F. (2022). Qərbi Azərbaycan həqiqətləri: İrəvan müəllimlər seminariyası və onun məzunları. Bakı.
7. Talıblı T. (1997). Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti. Bakı, "Göytürk".
8. Zeynalov Ə. (1999). İrəvan ziyalıları. Bakı, "Oğuz eli", s. 88–97.
9. Zeynalov Ə.M. (2022). İrəvan Müəllimlər Seminariyası. Bakı, "Respublika", 14 may, s. 5.
10. Rustamov F. Irevanskaya uchitel'skaya seminariya – 140. https://azertag.az/ru/xeber/Irevanskaya_uchitelskaya_seminariya___140-1979214